**Nəsib ŞÜKÜROV,**
*Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru*

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA QİDA TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİNİ TƏNZİMLƏYƏN QANUNVERİCİLİYİN İNKİŞAF TARİXİ

1991-ci ildə SSRİ dağıldıqdan sonra 12 noyabr 1995-ci il tarixdə layihəsi ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ümumxalq səsverməsində (referendumda) qəbul edildi. Ümummilli lider Heydər Əliyev haqlı olaraq göstərirdi ki, "bizim Konstitusiyamız Azərbaycan Respublikasının tarixi ənənələrini, xüsusiyyətlərini əks etdirir. O, Azərbaycan Respublikasında demokratik hüquqi dövlətin qurulmasını, ölkəmizdə olan bütün vətəndaşların hüquq və azadlıqlarını təmin edəcəkdir. Bu, bizim özümüzün Konstitusiyamızdır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır" [2].

Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsi "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi" adlanır və həmin maddənin ikinci hissəsində qeyd olunur ki, "hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır" [1]. Burada "hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları vardır" dedikdə, həmçinin insan hüquqlarının tərkib hissəsi olan ekoloji tarazlığı saxlanılmış təhlükəsiz qida hüququ da nəzərdə tutulur.

Konstitusiyanın 148-ci maddəsində diqqəti çəkən məqam ondan ibarətdir ki, burada Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin Azərbaycan Respublikasının qanunvericilik

sisteminin ayrılmaz tərkib hissəsi olması öz əksini tapmışdır. 1992-1999-cu illərdə isə qida təhlükəsizliyi məsələsinin də əks olunduğu bir sıra beynəlxalq sənədlər qəbul edilmişdir. Həmin sənədlərin əksəriyyətini Azərbaycan Respublikası ratifikasiya etmişdir. Məsələn, 1 yanvar 1995-ci ildə beynəlxalq ticarətin sərbəstləşdirilməsi və vahid qayda ilə işlənməsini qarşıya məqsəd qoyan, millətlər arasında ticarətin qlobal qaydalarını müəyyənləşdirən, əsası 1947-ci ildə qoyulmuş Tariflər və Ticarət üzrə baş Sazişin (GATT) davamçısı olan, mənzil-qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşən Ümumdünya Ticarət Təşkilatı (World Trade Organization) yaradılmışdır. Dünya Ticarət Təşkilatı çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət münasibətlərinin tənzimlənməsini həyata keçirir. Onun əsas funksiyası ticarətin tarazlı, maneəsiz, ehtimal olunan şəkildə və azad aparılmasını təmin etməkdir. Məqsəd üzv ölkələrin əhalisinin rifah halını yaxşılaşdırmaqdır [15].

Azərbaycan Respublikasında yeyinti məhsullarının keyfiyyətinin idarə edilməsinin, istehsalının və bazarının təşkilinin, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin hüquqi əsaslarının müəyyən edilməsi məqsədilə 18 noyabr 1999-cu il tarixdə 23 maddədən ibarət “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi [8]. Qanunda “yeyinti məhsullarının təhlükəsizliyi”nə və “əhalinin ərzaq təhlükəsizliyi”nə bu cür tərif verilmişdir: Yeyinti məhsullarının təhlükəsizliyi dedikdə, qida məhsullarının insan həyatı və sağlamlığı üçün təhlükəli olmamasına zəmanət verən, ekoloji, sanitariya, baytarlıq və fitosanitar norma, qayda və tələblərə, yəni qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara uyğunluğu nəzərdə tutulur.

“Əhalinin ərzaq təhlükəsizliyi”, bu - ölkə əhalisinin sağlamlığı və fəaliyyəti üçün vacib olan yeyinti məhsullarına tələbatının təmin edilməsi məqsədilə dövlətin həyata keçirdiyi iqtisadi, hüquqi və təşkilati tədbirlər sistemidir.

“Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin birinci hissəsində bildirilir ki, dövlət yeyinti məhsullarının istehsalı, ticarəti, tədarükü, saxlanması, idxalı, ixracı və

daşınması zamanı onun minimum keyfiyyətinə və təhlükəsizliyinə nəzarəti həyata keçirir.

"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli Fərmanına əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci 16 avqust tarixli 154 nömrəli qərarı ilə 18 bənddən ibarət olan "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları" təsdiq edilmişdir. Həmin Qaydaların 2-ci və 3-cü bəndlərində qeyd olunur ki, "dövlət nəzarətinin məqsədi istehlakçıların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, insanların həyatı, sağlamlığı, dövlətin əmlak maraqları, habelə ətraf mühit üçün birbaşa və mühüm təhlükə törədə və ya mühüm zərər vura biləcək yeyinti məhsullarının istehsalının, idxalının və satışının qarşısının alınması, bu sahədə respublikada keyfiyyətli məhsul istehsalına və idxalına şərait yaradılmasıdır.

8 iyun 1999-cu il tarixdə qəbul edilmiş, 82 maddədən ibarət "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda da qida məsələsinə müəyyən qədər toxunulur [5]. Məsələn, həmin Qanunun 52-ci maddəsinin 4-cü hissəsində göstərilir ki, dövlət ekoloji ekspertizasının obyektləri barədə ekoloji ekspertiza rəyi olmadan sənaye və ərzaq məhsullarının istehsalı, işlərin, xidmətlərin yerinə yetirilməsi və ya Azərbaycan Respublikasının ərazisinə gətirilməsi qadağandır.

Azərbaycan Respublikasında aparılan iqtisadi islahatların daha da dərinləşdirilməsini, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını və əhalinin ərzaq  məhsulları ilə təminatının yaxşılaşdırılmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti 2 mart 2001-ci il tarixdə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam vermişdir. Sərəncamda xüsusi vurğulanır ki, ərzaq təhlükəsizliyi insan ləyaqətinin başlıca amili olmaqla, əsas insan hüquqlarından biridir. Ona görə də bu hüququn təmin edilməsi Azərbaycan Respublikası Hökumətinin mühüm vəzifələrindən sayılır.

Ərzaq təhlükəsizliyi hər bir insanın sağlam və məhsuldar həyat tərzi üçün ərzaqla kifayət qədər təmin edilməsi deməkdir. Bu problemin həlli ilk növbədə yoxsulluğun azaldılması, ərzaq təminatının və ərzaq məhsullarından istifadənin səmərəsinin artırılması ilə bağlıdır.

2 mart 2001-ci il tarixli Sərəncamda həmçinin qida məhsulları istehsalçılarının ərzaq idxalından müdafiəsi, əhalinin qidalanmasının yaxşılaşdırılmasına nail olmaq üçün ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət mexanizminin yaradılması və tətbiq edilməsi, yerli ərzaq məhsullarının istehsalının, emalının və marketinqinin inkişafına nail olunması üçün tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur [4].

17 iyun 2003-cü il tarixdə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə körpələrin və erkən yaşlı uşaqların ana südü ilə qidalanmasının təbliği və müdafiəsinin başlıca istiqamətlərini, süni qida məhsullarının istehsalı, idxalı, reklamı və satışına nəzarətin təşkilati-hüquqi əsaslarını müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyən, 14 maddədən ibarət "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Azərbaycanda qida təhlükəsizliyi sahəsində ekoloji tarazlığın saxlanılmasının normativ hüquqi təminatında 29 iyun 2004-cü il tarixli "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun [7] və "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" 29 iyun 2004-cü il tarixli Azərbaycan Respublikası Qanununun [6] böyük əhəmiyyəti vardır. Belə ki, bu qanunların bəzi maddələrində öz əksini tapmış müddəalar qida təhlükəsizliyi sahəsində ekoloji tarazlığın saxlanılması məsələsinə də birbaşa aiddir. Göstərilən qanunlarda qida təhlükəsizliyi sahəsində ekoloji tarazlığın saxlanılmasını da özündə əks etdirən normalara nəzər yetirək.

"Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.2-ci maddəsində insan, onun hüquq və azadlıqları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin obyektlərindən biri kimi dəyərləndirilir.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinə potensial və real, daxili və xarici təhdidlər əsasən ictimai həyatın siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekologiya, elm, mədəniyyət və mənəviyyat sahələrində təzahür edir.

S.A.Afonsev hesab edir ki, “...iqtisadi təhlükəsizliyin təhdidləri milli və beynəlxalq iqtisadi sistemi destabilləşdirən iqtisadi və siyasi mənşəli endogen və ekzogen şokları təmsil edir” [9, s. 35]. M.Benediktov və Y.Xrustalyev göstərirlər ki, iqtisadi təhlükəsizlik təhdidlərinin təhlili kəsişən, lakin üst-üstə duşməyən təhdidlər qrupunu müəyyən edir:

1) iqtisadi xarakter daşıyan milli təhlükəsizlik təhdidləri;
2) iqtisadi sistemin stabilliyinə təsir göstərən təhdidlər [10, s. 124].

Göründüyü kimi, “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanununda insan, onun hüquq və azadlıqları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin obyektlərindən biri kimi qiymətləndirilir, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində ümumdövlət tədbirlərinin həyata keçirilməsi isə insanın təhlükəsizliyinin ünsürlərindən biri kimi göstərilir. Qidalanma hüququ isə bildiyimiz kimi, insan hüquqlarının tərkib hissəsidir və əhalinin ekoloji cəhətdən təmiz qida məhsulları ilə təmin edilməsi dövlətin iqtisadi, sosial və siyasi təhlükəsizliyinin zəruri ünsürüdür.

“Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda iqtisadi sahədə milli maraqların müdafiəsi ilə bağlı məlumatların əldə edilməsinin kəşfiyyat fəaliyyətinin tərkib hissəsi kimi, Azərbaycan Respublikasının iqtisadi maraqlarına zərər vura biləcək kəşfiyyat, terror-təxribat və sair pozuculuq əməllərinin aşkarlanması, qabaqlanması və qarşısının alınmasının isə əks-kəşfiyyat fəaliyyətinin tərkib hissəsi kimi qeyd olunması əhalinin ekoloji cəhətdən təmiz qida məhsulları ilə təmin edilməsi ilə birbaşa əlaqəlidir. Belə ki, əhalinin ekoloji cəhətdən təmiz qida məhsulları ilə təmin edilməsi dövlətin iqtisadi siyasətinin mühüm ünsürlərindən biridir.

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” təsdiq edilmişdir. Strateji Yol Xəritəsində dəyər zəncirinin bütün mərhələlərini əhatə edən və risklərin təhlili yanaşmasına əsaslanan qida təhlükəsizliyi sisteminin formalaşdırılması prioritet istiqamət kimi müəyyən olunmuşdur. Bu sənəddə göstərilir ki, “ərzaq təhlükəsizliyi sisteminin tərkib elementi kimi qida təhlükəsizliyi

sisteminin də müasir tələblərə uyğunlaşdırılması mühüm məsələlərdən biridir. Belə ki, Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsi sistemi beynəlxalq tələblərdən və qabaqcıl təcrübələrdən əhəmiyyətli dərəcədə fərqlənir və qida məhsullarının təhlükəsizliyini tam təmin edə bilmir. Qida təhlükəsizliyinin təminatı sisteminin Avropa İttifaqının və müvafiq beynəlxalq təşkilatların tələblərinə uyğunlaşdırılması və məhsulların təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsi zəruridir. Azərbaycan qida təhlükəsizliyi üzrə beynəlxalq standartları müəyyənləşdirən təşkilatların və konvensiyaların üzvüdür və bu standartların ölkədə tətbiqini genişləndirmək üçün imkanlar mövcuddur. Ölkədə yeyinti məhsulları bir çox qurum tərəfindən sertifikatlaşdırılır. Belə ki, heyvan mənşəli yeyinti məhsullarına baytarlıq, bitki mənşəli məhsullara fitosanitar sertifikatı, bütün yeyinti məhsullarına isə gigiyenik və uyğunluq sertifikatları verilir. Uyğunluq sertifikatı Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən verilir və məhsulların həm baytarlıq (heyvan mənşəli olduqda), həm fitosanitar (bitki mənşəli olduqda), həm də gigiyenik standartların tələblərinə uyğun olduğu təsdiq edilir. Deməli, hazırda milli standartlaşdırma sistemi yeyinti məhsullarının sertifikatlaşdırılmasında iştirak edir.

Sertifikatlaşdırılmış məhsul istehsalının standartların tələblərinə uyğunluğuna nəzarəti hazırda Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, bazarda məhsulların standartların tələblərinə uyğunluğuna nəzarəti isə İqtisadiyyat Nazirliyi həyata keçirir. Yeyinti məhsullarına istehsal səviyyəsində bir çox dövlət orqanı nəzarət edir. Belə ki, bitki və bitki məhsullarına Dövlət Fitosanitar Nəzarəti Xidməti, diri heyvanlara və heyvan məhsullarına Dövlət Baytarlıq Nəzarəti Xidməti nəzarət edir. İstehsala girən xammala və istehsal prosesinə Səhiyyə Nazirliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən nəzarət edilir. Məhsul bazara daxil olandan sonra isə ona əsasən İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti nəzarət edir. Göründüyü kimi, burada bəzi hallarda təkrarlanmalar mövcuddur. Bundan əlavə, qida təhlükəsizliyinə dair standartlar, sanitar və fitosanitar norma və qaydaların əksəriyyəti Sovet

İttifaqı dövründə hazırlanmışdır və beynəlxalq tələblərə uyğun olaraq təkmilləşdirilməsinə ehtiyac vardır" [3].

6 dekabr 2016-cı il tarixli Fərmanda qida təhlükəsizliyinə nəzarət sahəsində müxtəlif orqanların fəaliyyətində pararelliyin aradan qaldırılması və effektiv tənzimləmə sisteminin qurulması məqsədəuyğun sayılırdı.

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək, habelə ölkədə qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, bu sahədə şəffaflığı daha da artırmaq, pərakəndəliyi və təkrarlanmaları aradan qaldırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 10 fevral 2017-ci il tarixdə "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalamışdır. Bu Fərmanın birinci bəndində deyilir: "Azərbaycan Respublikasında qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni (sanitariya normaları və qaydalarının, habelə gigiyena normativlərinin hazırlanmasını və təsdiqini), risklərin təhlilini, qanunla müəyyən edilmiş qaydada gigiyenik sertifikatlaşdırma işinin aparılmasını, o cümlədən xarici ölkələrə ixrac edilən qida məhsullarına keyfiyyət sertifikatının verilməsini, habelə qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsi sahəsində və "tarladan süfrəyədək" prinsipi əsasında məhsulun daşıdığı risk səviyyəsinə uyğun olaraq qida məhsulları istehsalının bütün mərhələlərində dövlət nəzarətinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yaradılsın" [11].

"Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti 13 noyabr 2017-ci il tarixdə Fərman imzalamışdır. Bu Fərmana əsasən, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə", "Qida Təhlükəsizliyi Agentliyinin strukturu" təsdiq edilmiş, 75 ştat vahidindən ibarət Qida Təhlü-

kəsizliyi Agentliyi Aparatının işçilərinin say həddi müəyyən edilmiş, habelə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin tabeliyində publik hüquqi şəxs statuslu Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu yaradılmışdır.

13 noyabr 2017-ci il tarixli Fərmanın 5-ci maddəsində deyilir: “Müəyyən edilsin ki, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu qida məhsullarının təhlükəsizliyi sahəsində elmi-praktiki araşdırmalar aparır, elmi prinsiplərə əsaslanan risk qiymətləndirilməsini həyata keçirir, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların layihələrini hazırlayır və aidiyyəti üzrə təqdim edir, qida məhsullarına dair digər beynəlxalq standartların qida məhsullarının istehsalçıları tərəfindən könüllü tətbiqi, qida məhsullarının təhlükəsizliyi göstəriciləri üzrə tədqiqat xidmətləri göstərir”.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamənin 1.1-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi qida məhsullarının təhlükəsizliyinə, baytarlıq və fitosanitar nəzarətinə dair normativ tənzimləməni, qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatını, qida təhlükəsizliyi, fitosanitar və baytarlıq sertifikatlarının verilməsini, qida məhsullarının ilkin istehsalı, tədarükü, istehsalı, emalı, qablaşdırılması, saxlanması, daşınması, dövriyyəsi (o cümlədən idxal-ixrac əməliyyatları) daxil olmaqla qida zəncirinin bütün mərhələlərində qida məhsullarının təhlükəsizliyinə, həmçinin qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsinə dövlət nəzarətini, habelə qeyd olunan sahələrdə dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır [12].

1 may 2018-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti “Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracının tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 aprel tarixli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman vermişdir. Bu hüquqi sənədə əsasən, qeyd olunan 2005-ci il 1 aprel tarixli Fərmanın 1.1.1-ci maddəsinin aşağıdakı redaksiyada verilməsi məqsədəuyğun sayılmışdır:

“Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Avropa İttifaqı ölkələrinə ixrac edilən qida məhsullarının təhlükəsizlik meyarları üzrə ekspertizasının keçirilməsi, həmin ekspertizanın nəticələrinə uyğun olaraq onlara təsdiqedici kod nömrələrinin və ixracatçılara ekspertizanın nəticələrini təsdiq edən sənədlərin verilməsi, qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatı və dövlət reyestrinin aparılması fəaliyyətini həyata keçirən, habelə Avropa İttifaqının bu sahədə müvafiq tələblərinin icrasını təmin edən vahid səlahiyyətli orqandır” [13].

“Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının 7.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 may 2018-ci il tarixli Qərarına əsasən, “Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi” və “Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin strukturu” təsdiq edilmişdir. “Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi”nin 2-ci bəndində qeyd olunur ki, İnstitutun fəaliyyətinin əsas məqsədi insanların həyat və sağlamlığının qorunması üçün qida təhlükəsizliyinin daha səmərəli təşkilini təmin etməkdən ibarətdir [14].

Bütün insanlar ekoloji tarazlığı saxlanılmış təhlükəsiz qida məhsulları ilə təmin olunmaq hüququna malikdirlər. Burada ekoloji tarazlığı saxlanılmış təhlükəsiz qida məhsulları ilə təmin olunmaq hüququ dedikdə, qanunvericilik aktında ifadə olunmuş, dövlətin məcburi gücü ilə təmin edilmiş dövlət iradəsi başa düşülür. Ekoloji tarazlığı saxlanılmış təhlükəsiz qida məhsulları ilə təmin olunmaq hüququnun dəyəri isə özünü vətəndaşların, cəmiyyətin sosial ədalətli, mütərəqqi tələbat və maraqlarının təmini üçün məqsəd və vasitələrdə büruzə verir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: “Hüquq Yayın Evi”, nəşriyyatı, 2017, 92 s.

2. Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı - Prezident sarayı, 10 noyabr 1995-ci il. "Azərbaycan" qəzeti, Bakı, 1995, 11 noyabr
3. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı. Bakı: Qanun, 2017, 92 s.
4. "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2 mart 2001-ci il tarixli Sərəncamı. Bakı: Qanun, 2002, 10 s.
5. "Ətraf mühitin mühafizəsi haqqında" 8 iyun 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2017, 44 s.
6. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" 29 iyun 2004-cü il tarixli Azərbaycan Respublikasının Qanunu. Bakı, "Azərbaycan" qəzeti, 5 avqust 2004-cü il, № 180
7. "Milli təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli Azərbaycan Respublikasının Qanunu. Bakı, "Azərbaycan" qəzeti, 6 avqust 2004-cü il, № 181
8. "Yeyinti məhsulları haqqında" 18 noyabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2018, 8 s.
9. Афонцев С.А. Национальная экономическая безопасность: на пути к теоретическому консенсусу // Мировая экономика и международные отношения, 2002, №10, с. 30-39
10. Бенедиктов М. Хрусталев Е. Экономическая безопасность наукоемких производств // Вопросы экономики, 1999, № 9, с. 119-125
11. "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Fərmanı. https://president.az/ /articles/22752/print
12. "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2017-ci il tarixli Fərmanı. http://e-qanun.az/ /framework/36883

13. “Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracının tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 aprel tarixli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1 may 2018-ci il tarixli Fərmanı.
http://afsa.gov.az/uploads/legislation/ferman/27azrb_1_1__pdf 1527144612.pdf
14. “Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 may 2018-ci il tarixli Qərarı.http://www.e-qanun.az/framework/38867
15. Ümumdünya Ticarət Təşkilatı (World Trade Organization).
https://az.wikipedia.org/wiki/%C3%9Cmumd%C3%BCnya_Ticar% %C9%99t_T%C9%99%C5%9Fkilat%C4%B1